**Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi**

**Dayanıqlı Torpaq İdarəetmə və Torpaqdan İstifadə Monitorinqi üzrə Milli Agentlik**

# "Dövlət mülkiyyətində olan otlaqların əlçatanlılığı" üzrə Dövlət Proqramı.

**Gürcüstan hökumətinin 2021-ci il tarixli 497 nömrəli qərarı**

## Proqramın məqsədi nədir?

Heyvandarlığın inkişafının və otlaqlardan səmərəli istifadənin təşviqi, otlaqların deqradasiyasının qarşısının alınması.

## İcarəyə veriləcək otlaq necə seçilir?

Müvafiq bələdiyyə ilə razılaşdırılaraq, Dayanıqlı Torpaq İdarəetmə və Torpaqdan İstifadə Monitorinqi üzrə Milli Agentlik icarəyə verilməsi üçün dövlət mülkiyyətində olan otlaq sahələrini seçəcək. Bundan əlavə, maraqlı şəxs 100 ha-dan az olmayan dövlət qeydiyyatına alınmamış torpaq sahəsinin inedtfikator məlumatlarını təqdim edə bilər. - Torpaq sahəsinin kadastr çəkilişi/planı (çizgisi)- otlaq kateqoriyasına aid kənd təsərrüfatı təyinatlı torpaq sahəsi kimi qeydiyyata alınması məqsədilə və ya kateqoriyasız qeydiyyata alınmış dövlət kənd təsərrüfatı təyinatlı torpaq sahəsi haqqında identfikator məlumatı - Torpaq sahəsinin kadastr kodu - otlaq kateqoriyalı kənd təsərrüfatı təyinatlı torpaq sahəsi kimi qeydiyyata alınması məqsədi ilə.

## Proqram çərçivəsində icarəyə verilən otlaqlar haqqında məlumatı haradan əldə edə bilərik?

Proqram çərçivəsində icarəyə verilən otlaqlar haqqında məlumat sonrakı internet ünvanlarında dərc olunur: www.mepa.gov.ge; www.land.gov.ge.

## Proqramda kimlər iştirak edə bilər?

Proqram çərçivəsində otlaq sahəsini icarəyə götürmək istəyən və müvafiq otlaq sahəsini tutmaq üçün kifayət qədər sayda identfikasiya oluna bilən iribuynuzlu mal-qara və/və ya xırdabuynuzlu heyvanları olan bütün fiziki və ya hüquqi şəxslər, o cümlədən kənd təsərrüfatı kooperativləri, habelə ortaqlıqlar.

Bir baş mal-qara üçün limit yükün norması 1 ha-dan az və 1,5 ha-dan çox olmayacaq şəkildə və/və ya bir baş xırdabuynuzlu heyvan üçün - 0,2 ha-dan az və 0,5 ha-dan çox olmayacaq şəkildə otlaq sahəsi kimi müəyyən edilir.

## Proqramda iştirak etmək üçün hansı sənədlər tələb olunur?

- Ərizənin təqdim edilməsinə qədər 15 iş günündən gec olmayacaq şəkildə, Milli Qida Agentliyinin sahiblikdə olan mal-qaranın sayı barədə verdiyi arayış, harada ki, mal-qaranın fərdi identifikasiya nömrələri də göstərilməlidir;

- Fiziki və ya hüquqi şəxsin, habelə kooperativ olduqda onun payçılarının, ortaqlıq olduqda isə onun üzvlərinin mülkiyyətində və/və ya icarəyə götürdüyü dövlət/muxtar respublika/bələdiyyə mülkiyyətində olan otlaq sahəsi haqqında, belə bir şey mövcud olduqda dövlət reyestrindən verilmiş müvafiq çıxarışlar.

- Fiziki şəxs - şəxsiyyət vəsiqəsinin surəti;

- Hüquqi şəxs - sahibkarlıq reyestrindən çıxarış, kənd təsərrüfatı kooperativi halında əlavə olaraq - payçılar reyestrinin notariat qaydasında təsdiq edilmiş surəti;

- Ortaqlıq - bütün üzvlərin şəxsiyyət vəsiqəsinin surəti, notariat qaydasında təsdiq edilmiş birgə fəaliyyət müqaviləsi, ortaqlığı təmsil etməyə səlahiyyətli şəxsin şəxsiyyət vəsiqəsinin məlumatları və səlahiyyəti təsdiq edən sənəd.

## Proqramda iştirak etmək üçün necə müraciət edə bilərik?

İştirak etmək istəyənlərin qeydiyyatı üçün son tarix ən azı 30 təqvim günüdür. Qeydiyyatın başlanğıcı və başa çatması haqqında məlumat vaxtaşırı sonrakı internet səhifələrində dərc olunur: www.mepa.gov.ge; www.land.gov.ge.

Ərizənin və ona əlavə edilmiş sənədlərin agentliyə təqdim edilməsi maddi formada həyata keçirilir. Qurum tərəfindən 5 iş günü müddətində müəyyən edilən məlumatlar natamam təqdim edildikdə, səhvin aradan qaldırılması üçün iddiaçıya əlavə 10 təqvim günü verilir.

Agentlik konkret otlaq sahəsi üzrə təqdim olunan maraqlara əsasən iştirakçıların siyahısını tərtib edir və hərracın keçirilməsi üçün Əmlak Məsələləri üzrə Milli Agentliyə göndərir. Torpaq sahəsi üçün yalnız bir iştirakçı seçilərsə, Gürcüstan hökumətinin qərarı ilə ona otlaqdan istifadə hüququ hərracsız, birbaşa ötürmə yolu ilə veriləcək.

Otlaq sahəsi hərrac şəklində istifadəyə verildikdə, hərracda otlaq üçün ilkin illik ödəniş Gürcüstan hökumətinin 13 yanvar 2011-ci il tarixli 15 nömrəli qərarı ilə müəyyən edilir. 1 ha. otlaq sahəsinin ilkin illik hərrac qiyməti: Axmeta və Dedopliscğaro bələdiyyələrində 8 lari, digər bütün bələdiyyələrdə isə 15 lari təşkil edir. Bununla belə, örüş sahəsinin icarəyə verilməsinin son qiyməti hərracın nəticələrinə əsasən müəyyən olunur. Hərçənd, qalib hərrac başa çatdıqdan sonra 50 təqvim günü ərzində birinci ilin icarə haqqını ödəyir.

## İcarəyə götürənin hansı öhdəlikləri var?

Hərracda qalib gələn iştirakçı ilə Dayanıqlı Torpaq İdarə Etmə və Torpaqdan İstifadə Monitorinqi üzrə Milli Agentlik və Əmlak Məsələləri üzrə Milli Agentliyi arasında 3 illik üçtərəfli icarə müqaviləsi imzalanır. İcarəyə götürən örüş sahəsinin saxlanmasını, yalnız proqrama daxil edilmiş mal-qaranın örüşdə otarılmasını, habelə icarə müqaviləsində nəzərdə tutulmuş öhdəliklərin qorunmasını təmin edir.